# İKİ ŞAH, İKİ SULTAN

## (romandan parçalar)

*(Əvvəli ötən saylarımızda)*

***...Ordu hərəkətə başlamışdı. Uzun Həsən yaxşı təlim görmüş, ümumi qarğaşa içində sahibinin istəklərini məqamındaca duyan ağ ayğırın belində qoşunun demək olar ki, ön sırasında irəliləyirdi. Heç kimə heç nə demirdi. Hərdən ona yaxınlaşan oğlanları da, Ağqoyunluların adlı-sanlı sərkərdələri də uzanan yol boyu ondan heç nə eşitmədi. Sanki hökmdar müharibəyə yox, ömrünün əzəlindən axırınacan başladığı yolu getməkdə idi, özü də tək-tənha.***

***Əslində isə Uzun Həsən döyüşün harada, necə başlayacağını, qarşılaşmanın nə ilə nəticələnəcəyini, döyüş meydanından sonrakı vəziyyətin necə olacağını götür-qoy etməkdə idi. Necə deyərlər, "şər deməsən, xeyir gəlməz" - məsəli Uzun Həsən fikrindən keçirdi. Arxasınca da çox astaca, yalnız özünün eşidə biləcəyi bir pıçıltı ilə dodaqaltı elə özü-özü ilə danışırmış kimi dedi: «Bəlkə, bu dəfə Allah Sultan II Mehmetin tərəfində oldu, onda Ağqoyunluların qurduğu səltənətin taleyi necə olacaq? Sultan II Mehmet kininin, qəzəbinin şərabını axıracanmı içəcək?»***

***Amma Uzun Həsənin bilmədikləri də vardı. Bu da ondan ibarət idi ki, Sultan II Mehmet də bu savaşdan salamat çıxmağı özü üçün Allahın böyük mükafatı sayırdı. O, Allaha yalvarırdı ki, bu döyüşü birtəhər qələbə ilə başa çatdırıb, sağ-salamat Osmanlı sarayına qayıtsın. Lap bir az da dərinə getsən, Sultan II Mehmet qəlbinin alt qatında yatan düşüncələrində etiraf edirdi; kaş ki, heç əvvəldən Ağqoyunlularla savaşa başlamayaydım, amma iş işdən keçmiş, ox yayından çıxmışdı. İndi onu geri döndərmək mümkün deyil. Sultan II Mehmet tələsirdi ki, Fərat sahillərinə tez çatsın, Murad dağının ətəklərindən keçsin. Döyüş üçün ən əlverişli mövqeləri Uzun Həsəndən qabaq nəzarətə götürsün.***

***Uzun Həsən də əsas döyüş mövqelərinə yetmək üçün dayanmadan irəliləyirdi. Murad dağının ətəklərinə çatar-çatmaz Osmanlı qoşununun da qabaq-qənşər əraziləri tutduğunu irəlidə gedən kəşfiyyatçılar öyrənib ona çatdırdılar. Hündür bir təpənin üstündə dayanmış Uzun Həsən Osmanlı qoşununu müşahidə edirdi...***



***Hüseynbala MİRƏLƏMOV***

Əvvəlcə gözlərinə inanmadı. Ona elə gəldi ki, gördüyü mənzərə qarşı dağın ətəklərindən üzü üfüqlərə tərəf, lap elə dünyanın axırınacan insan selinə bürünüb.

Yox, bu qədər insan ola bilməz - Uzun Həsən xəyalından keçirdi. Bəlkə, mənim gözümə daş, qala hamısı insan kimi görünür. Amma hava tam açıldıqca, ona məlum oldu ki, bəli, həqiqətən Osmanlı qoşununun ucu-bucağı görünmür.

Çox döyüşlər görmüş, neçə müharibələr aparmış, bəzən qələbəsi qədərincə olmasa da, məğlubiyyətindən də sarsılmamış, yarı yaşını çoxdan keçirmiş sərkərdə ilk dəfə idi ki, döyüşdən əvvəl düşmən qüvvəsi önündə heyrətlənirdi.

Uzun Həsən yaxınlığında olan oğlu Yaqub Mirzəyə tərəf döndü:

- Sən vaxtı gözləmə. Süvarilərinlə Osmanlı qoşununa həmlə elə. Sonra da sürətlə geriyə çəkil.

Yaqub Mirzə istədi ki, atasına etiraz eləsin.

- Axı...

- Nə axı? - Uzun Həsən sərt bir şəkildə oğlunun sözünü kəsdi.

Amma Yaqub Mirzə də sözünü udmadı:

- Biz keçən döyüşdə bu üsuldan istifadə eləmişik. Düşünürəm ki...

- Nə düşünürsən?

- Sultan II Mehmet bu dəfə o tələyə düşməz - Yaqub Mirzə axır ki, məqsədini çatdırdı.

- Deyilənə əməl et! - Bu dəfə hökmdar əmr elədi.

Yaqub Mirzə iki addım geri çəkilib, Uzun Həsənə təzim elədi:

- Baş üstə, hökmdar, - dedi və sürətlə atasından uzaqlaşdı. Yaxınlıqda atını saxlayan qorumanın yanına qayıtdı. Atın yüyənini aldı, başına çevirdi, ayağını üzəngiyə basıb, atın belinə tullandı, sürətlə çapıb uzaqlaşdı.

Digər oğluna da o biri cinahdan həmlə etməyi tapşırdı. Günortaya qədər kəskin çarpışma tərəflərin heç birinə üstünlük vermədi. Aralıdan baxanda, döyüş meydanı qırmızı rəngə çalırdı. Günəşin parlaq şüaları altında ayrı-ayrı qan gölməçələri parıldayır. Bu görüntü bütövlükdə bir vahimə görkəmi yaradırdı.

Uzun Həsənin Osmanlı qoşununu dərin dərələr boyu arxasınca çəkmək planı baş tutmadı, çünki Osmanlılar indi lap onun ordugahına - dayandığı yerəcən də yaxınlaşmış və öldürülmüşdü. Növbəti döyüşdə başqa biri də belə ortaya çıxa bilərdi.

Bəs vəziyyətdən necə çıxmaq olar? Sultan II Mehmet başını əllərinin arasına aldı: «İndi mən Uzun Həsənin yanına elçilər göndərib, barışıq təklif eləsəm, eşidən, bilən mənim haqqımda nə düşünər? Barışıq da olmasa, bu işin axırı çox qaranlıq görünür».

Sultan II Mehmetin yanındakı müzakirə çox çəkdi. Bütün bu müddət ərzində o, tez-tez döyüşün gedişatını izləyirdi. Ağqoyunlular geri çəkilmirdilər. Tez-tez ara həmlələrlə Osmanlıları sıxışdırırdılar. Amma Sultan II Mehmet onu da görürdü ki, o, döyüşdə müvazinəti yalnız qüvvənin çoxluğu ilə qoruyub-saxlaya bilir. Açıq-aşkar mənzərə idi. Ağqoyunlular həqiqətən qəhrəmanlıqla vuruşurdular. Qüvvələrinin azlığı isə onlara qələbə imkanı vermirdi. Sultan II Mehmet hələ də döyüşü dayandırıb barışıq təklifi vermək üzərində düşünürdü.

əsas diqqəti tüfəngçilərə yönəltmişdilər. Qarşı tərəfin yaxınlaşan qüvvələrini, öncüllərini asanlıqla tüfəng atəşləri ilə yerə sərirdilər. Axşam tərəfinə yaxın Ağqoyunlu qoşununun ən döyüşkən dəstələri demək olar ki, məhv edilmişdi. Osmanlılar da az qüvvə itirməmişdilər. Buna baxmayaraq, Osmanlılar hər dağılmış dəstənin əvəzinə yeni qüvvələr yeridirdi meydana. Uzun Həsənin isə ehtiyatda elə də artıq qüvvəsi qalmamışdı.

Uzun Həsən fikrinindən keçirirdi ki, qüvvələrini geriyə çəkib, təzədən səfərbər eləsin və sabah yenidən döyüşə başlasın. Ancaq az-çox sağ qalan sərkərdələri ilə kiçik məşvərətdən sonra başa düşdü ki, əgər sabah döyüşə təzədən başlamalı olsa, Ağqoyunlular bütün qüvvələrini itirəcəklər. Bu isə bütövlükdə ölkənin ayaq altına verilməsi demək idi.

Qarşı tərəfdə də gərgin fikir çarpışması gedirdi. Sultan II Mehmet açıq-aşkar duyurdu ki, Ağqoyunlular çox inadla vuruşurlar. Bəzən bir əsgər on əsgərə qarşı çarpışır. İtkilər də o qədər çox olurdu ki, istər-istəməz Osmanlı sultanını vahimə bürüyürdü. Əgər döyüş beləcə davam eləsə, onda bu işlərin axırı necə qurtarar?.. Sultan II Mehmet hər hansı bir gözlənilməz hadisənin də baş verməsindən ehtiyatlanırdı. Belə inadla döyüşən Ağqoyunlu əsgərlərindən biri

...Gün əyilmişdi. Bu vaxt o açıq-aşkar gördü ki, Ağqoyunlu qüvvələri geri çəkilir. Əvvəlcə Sultan II Mehmetə elə gəldi ki, Uzun Həsən yenə bir hiylə planı qurub. Bir az da müşahidələrini davam etdirdi. Gördü yox, belə deyil. Sultan II Mehmet əlini göyə qaldırdı:

- Allah sənə şükür, deyəsən, döyüş qurtardı.

...Qarşı tərəfdə Uzun Həsən vəziyyəti çox diqqətlə izləyirdi. O, gördü ki, mövcud qüvvələri ilə Osmanlı ordusuna açıq döyüşlə heç cür qələbə çalmaq mümkün olmayacaq, çünki hər çarpışmadan az keçməmiş yeni qüvvələr meydana yeridilir. Uzun Həsən oğlanlarına baxdı. Xəlil Mirzə ilə Yaqub Mirzənin cinahlarda döyüşü onun qəlbini qürur hissi ilə dolururdu. Amma başa düşdü ki, bu inadlı çarpışmanın sonunda təkcə qələbəni yox, hələ üstəlik oğlanlarını da itirə bilər. Yanında dayanmış mühafizlərə işarə elədi və üzü Təbrizə tərəf yolu göstərdi:

- Onsuz da axşam düşür, qaranlıqda düşmən onu təqib etməyəcəkdi. Ağqoyunluların təbilləri guruldadı. Hər bir dəstəbaşına çatası səs siqnalları ilə «geriyə çəkilin, döyüşdən çıxın» əmri verilirdi.

Beləcə, Uzun Həsən birbaşa Təbrizə geri dönməli oldu. Doğrudur, çox qüvvə itirmişdi, amma hər halda Ağqoyunlu ordusunun qalan qüvvələrində hələ də döyüş əzmi var idi. Uzun Həsən xəyalından keçirdi. «Buna da şükür. Sultan II Mehmet gördü ki, biz onunla üzbəüz döyüşməkdən çəkinmədik. Tale bizim üzümüzə gülməsə də, bizi zəlil günə də qoymadı».

Uzun Həsənin xəyalı Sultan II Mehmetlə üzbəüz dayanmışdı:

«- Ağlını başına yığ, Sultan, çəkil, get öz vilayətinə».

«- Bəlkə, qorxursan, qorxursan ki, səni təqib eləyərəm. Təbrizəcən gələrəm, paytaxtını yerlə-yeksan eləyərəm».

«- Yox, mənim qorxum yoxdu, gələrsən, yenə cavabını alarsan».

«- Bəs onda niyə belə?..»

«- Sultan, sən Osmanlı səltənətini ucalt, mən də öz diyarımın işləri ilə məşğul olum. Daha vaxt çatıb, gözünü aç, ətrafına yaxşı bax».

«- Bax, bunu doğru deyirsən, şah. Qərb ölkələri bizim heç birimizin güclənməyini istəmir. Əgər onların gücü çatsaydı, ikimizi də bir dəfəyə parça-tikə eləyərdi. Ərazilərimiz də Avropa atlılarının ayaqları altında qalardı».

«- Sultan, mən də elə bunları demək istəyirdim, əgər özün başa düşürsənsə, daha nəsə izah eləməyə lüzum yoxdu».

«- Şah, bir vaxt Sara xatun bizim aramızda körpü salmışdı. Bu, dostluq, qardaşlıq körpüsü idi».

«- İndi sən o körpünü düşmən kimi keçmək istəyirsən, Sultan?»

«- Yox, şah, mən o körpünü keçməyəcəm. Mən səni təqib etməyəcəm. Bu döyüşdə ikimizin də salamat qalmağı Allahın bizə çox nadir lütfüdür».

« - Bəli, Sultan, əgər bu döyüşdən salamat çıxmışıqsa, demək, Tanrı bizə imkan verib ki, öz ölkələrimizin əmin-amanlığı ilə məşğul olaq. Ticarət əlaqələrimiz, bundan sonra daha da sıx olsun».

«- Doğrudur, şah, mən Osmanlı sarayına qayıdıram. Qərb tərəfdən təhlükələrim var. Onları qarşılamağa hazırlaşacağam».

«- Sənə uğur olsun, sultan. Mən də Təbrizə qayıdıb quruculuq işlərinə başlayacam, kimsə ilə işim yoxdu. Əgər kimsə üstümüzə gəlməli olsa, bu gün özün gördüyün Ağqoyunlu əsgəri canının qorxusunu çəkmədən onun qabağına çıxacaq».

«- Yaxşı yol, şah».

«- Sənə də uğurlar, Sultan».

Beləcə, iki hökmdarın xəyali qarşılaşması bir-biri ilə anlaşma ilə bitdi.

Birdən Uzun Həsən sanki kiməsə deyirmiş kimi dilləndi: «Allaha şükür, hər şey qurtardı». Yaxınlıqda onunla birgə irəliləyən oğlanları, bəlkə də, atanın bu ağır döyüşdən sonra kədər içində geri dönən yolda nə üçün "Allaha şükür" eləməyinin səbəbini bilmədilər. Əslində, Uzun Həsənin bu şükranlığının kökündə məsələni başa düşməsi dayanırdı. Uzun Həsənə aydın olmuşdu ki, Sultan II Mehmet onu təqib etməyəcək, çünki vəziyyət belə tələb edirdi.

Bəli, Sultan da öz başının hayında idi.

...Uzun Həsən Təbrizə qayıdırdı. Təbrizdə Nəsriyyə məcsid-mədrəsəsini inşa etməli idi.. və başqa da arzuları vardı. Təbabət, məktəbdarlıq, elm ocaqları... qurmağı düşünürdü.

Bir azdan Təbriz darvazaları görünəcəkdi. Axı səhər açılırdı.

***(Davamı var)***